




► 2010-cu il sentyabrın 29-dan oktyabrın 3-ə qədər Türkiyənin Antalya şəhərində Rixos Sungate otelinin Konfrans Mərkəzində Türkiyə Oftalmologiya Dərnəyinin (TOD) 44-cü Milli Konqresi keçirildi. Bu konqresdə Azərbaycan Oftalmoloqları böyük bir nümayəndə heyəti ilə iştirak etdi.

Milli Oftalmologiya Mərkəzinin nümayəndə heyətinə prof. E.Qasımov rəhbərlik edirdi.

Konqres Türkiyə Oftalmoloqlar Dərnəyi Bursa şöbəsi tərəfindən təşkil edilmişdi. Elmi sessiyalar oftalmologiyanın müxtəlif bölmələri üzrə keçirilirdi.





► Konqresdə kliniki tədqiqat simpoziumları, təlim kursları, gənc oftalmoloqlar proqramı, Free Paper prezentasiyaları, video simpoziumlar, və “canlı” cərrahiyyə aparılmışdır. Konqres çərçivəsində geniş sərgi təşkil edilmişdir. Sərgidə oftalmologiya sahəsində ən yeni nailiyyətlər, müasir oftalmoloji avadanlıqlar və yeni dərman preparatlar təqdim edilmişdir.












► Konqresin işində Türk Cümhuriyyətləri Oftalmoloqlar Dərnəyinin (TCOD) üzvləri aktiv iştirak edirdi. TCOD üzvləri həm müstəqil toplantılarda, həm də müxtəlif ixtisas profilli yığıncaqlarda öz elmi nailiyyətləri haqqında məruzələr etdilər.



Azərbaycan oftalmolqlarından prof. P.Musayev, M.Kərimov, N.Hacıyeva, T.Qəlbinur, S.Əkbərova çıxış etdilər. D-r F.Ağayevanın işi panel foto sərgisində təqdim edilmişdir. ◄



Konqresdə olan əlamətdar hadisə Türk Cümhuriyyətləri Oftalmoloqları Dərnəyinin 10 illik yubileyinin qeyd edilməsi oldu. ◄




► Daha bir sevindirici xəbər TCOD sədri prof. Sunay Dumanın Amerika Oftalmologiya Akademiyası tərəfindən Elmi fəaliyyətdə xüsusi nailiyyətlərə görə Mükafatla təltif olunması oldu.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin rəhbərliyi və əməkdaşları prof. S.Dumanı bu mükafatla təbrik edir, ona can sağlığı və fəaliyyətində yeni müvəffəqiyyətlər arzulayırlar.